# Korroziya Prosesləri və  Onun İdarə olunması

| | |
|---|---|
| Kurs: | Korroziya və onunla mübarizə üsulları |
| Səviyyə: | Baza, ümumi əsaslar |
| Müddət: | 5 gün |
| İnstruktorlar: | Dos.Famil Vəliyev,  k.ü.f.d.Elşən Sultanov |

Bu kurs neft və qazın hasilatı, saxlanması və nəqli zamanı baş verən korroziya proseslərinin əsas səbəblərini, monitorinqini və onunla mübarizə üsullarını əhatə edir. Təqdim olunan kursda korroziya prosesinin mexanizmlərinə və onun formalarına baxılacaqdır. İştirakçılar verilmiş şəraitdə, korroziya göstəricilərini fiziki və kimyəvi analizlərin nəticələrinə əsasən  qiymətləndirəcəklər; müxtəlif şəraitlərdə korroziyadan mühafizə üçün material və örtüklərin seçilməsinə yanaşma (eyni zamanda NACE MR0175/İSO 15156 istifadə etməklə); katod mühafizəsinin tətbiq edilməsi, katod mühafizəsinin tipinin seçilməsi, cari tələblərin qiymətləndirilməsi və katod mühafizəsi sisteminin prinsipinin qurulması kimi məsələlər nəzərdən keçiriləcəkdir. Eyni zamanda iştirakçılar, müxtəlif sistemlər üçün korroziya inhibitorlarının seçilməsi və tətbiq edilməsini, korroziya üzrə monitorinq üsullarının seçilməsi və tətbiq olunmasını öyrənəcəklər. Kursun iştirakçıları korroziya prosesləri və onunla mübarizə üsulları haqqında nəzəri və praktiki biliklərə yiyələnməklə, istehsalat prosesində baş verə biləcək korroziya problemlərinin nəticələrini aradan qaldırılması haqqında baza biliklərinə sahib olacaqlar.

**Nəzərdə tutulur:**

Kurs neft və qazın çıxarılması, emalı, nəqli prosesində korroziya proseslərini və onun idarə olunması məsələlərini bilməli olan menecerlər, mühəndislər, kimyaçılar və operatorlar üçün nəzərdə tutulur.

**Öyrəniləcək material:**

- Korroziyanın kimyəvi əsasları
- Neftin qazın çıxarılması, emalı və nəqli sistemlərində yaranan korroziyanın əsas mexanizmləri
- Hidrogen sulfid($H_2S$) və onun təhlükələri
- Korroziya nəticəsində dəyən ziyanın müxtəlif tipləri
- Korroziyadan mühafizə üçün materialların seçilməsi
- Katod mühafizəsinin tətbiqinin bəzi üsulları
- Korroziya inhibitorların seçilməsində yeniliklərin tətbiq olunması
- Korroziyanın nəzarət üsullarının üstün və çatışmayan cəhətləri
- Korroziya proseslərinin idarə olunma strategiyası

**Kursun tərkibi:**

- Korroziya nəzəriyyəsinin əsasları
- Korroziyanın əsas səbəbləri ($O_2$,  $CO_2$,  $H_2S$, mikrobioloji korroziya)
- Hidrogen sulfid($H_2S$), onun təhlükələri və təmizlənmə üsulları
- Korroziyanın növləri

- Materialların seçilməsi
- Nefin və qazın nəqli zamanı boru kəmərlərinin korroziyası
- Mühafizə örtükləri
- Katod mühafizəsi
- Korroziya inhibitorları
- Monitorinq və korroziyaya nəzarət
- Korroziyanın idarə olunma strategiyası və xidmət müddəti boyunca sərf olunan xərclər

**Tədrisi aparan təlimçi haqqında:**

- Dosent, kimya elmləri namizədi Famil Qələndar oğlu Vəliyev SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun "Korroziyadan mühafizə" şöbəsinin rəisidir. 60-a qədər elmi əsərin müəllifidir. Onun elmi əsərləri dünyanın aparıcı jurnallarında (Chemistry of Materials, Chemical Communications, Organic & Biomolecular Chemistry, Journal of the Iranian Chemical Society, Journal of the Chinese Chemical Society) dərc olunmuşdur.

- Kimya üzrə fəlsəfə doktoru Elşən Feyruz oğlu Sultanov SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun "Korroziyadan mühafizə" şöbəsinin aparıcı elmi işçisidir. 20-dən artıq elmi əsərin müəllifidir.

**Kursun keçirilmə yeri:**

«Neftqazelmitədqiqatlayihə» İnstitutu

Bütün kurslar institutun daxilində prezentasiya formasında keçirilə bilər. Həmçinin institut daxilində daha da dərindən kurslar təşkil oluna bilər.
Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.
Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (99412) 521-15-15;
e-mail: office.ogpi@socar.az.

Ünvan:

«Neftqazelmitədqiqatlayihə» İnstitutu
AZ 1012, Bakı şəhəri , H.Zərdabi pr.88a